AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

# ƏMR

№ 3-50/3-1-60/2026

**Bakı şəhəri** "25" fevral 2026 il

**Dissertasiya şurasının yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 4.1-ci bəndinə əsasən, "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 4.2.1-ci yarımbəndini və 4.8-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Geologiya İnstitutu nəzdində 2507.01 – "Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları" və 2521.01 – "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" ixtisasları üzrə yer elmləri sahəsində fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi FD 1.01 olan Dissertasiya şurası yaradılsın.
2. FD 1.01 Dissertasiya şurasının sədri AMEA-nın həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor Feyzullayev Əkpər Əkpər oğlu, sədr müavini AMEA-nın həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor Qədirov Fəxrəddin Əbülfət oğlu, elmi katibi texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Mirzəyeva Dilquşa Ramzey qızı təyin edilsin.
3. FD 1.01 Dissertasiya şurası 12 nəfərdən ibarət tərkibdə təsdiq edilsin (əlavə olunur).
4. FD 1.01 Dissertasiya şurasının səlahiyyət müddəti 01.11.2028-ci il tarixinədək müəyyən edilsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Geologiya İnstitutunun 23.12.2025-ci il tarixli 25-12/374 nömrəli vəsatəti, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 20.02.2026-cı il tarixli (protokol № 3-50/3-2-1-02/2026) qərarı.

**Sədr,**
**professor** **Famil Mustafayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 25 fevral 2026-cı il tarixli 3-50/3-1-60/2026 nömrəli əmri ilə təsdiq edilmişdir.

**FD 1.01 Dissertasiya şurasının tərkibi:**

**2507.01 – "Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları" ixtisası üzrə**

| | | |
|---|---|---|
| 1. | Qədirov Fəxrəddin Əbülfət oğlu (sədr müavini) | AMEA-nın həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor |
| 2. | Babayev Qulam Rüstəm oğlu | yer elmləri doktoru, dosent |
| 3. | Əhmədov Tofiq Rəşid oğlu | geologiya-mineralogiya elmləri doktoru, professor |
| 4. | Əliyarov Rauf Yusif oğlu | geologiya-mineralogiya elmləri doktoru, dosent |
| 5. | Həsənov Ədalət Bədəl oğlu | fizika-riyaziyyat elmləri doktoru, dosent |
| 6. | Məmmədli Tahir Yadigar oğlu | geologiya-mineralogiya elmləri doktoru, dosent |

**2521.01 – "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" ixtisası üzrə**

| | | |
|---|---|---|
| 1. | Feyzullayev Əkpər Əkpər oğlu (sədr) | AMEA-nın həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor |
| 2. | Mirzəyeva Dilquşa Ramzey qızı (elmi katib) | texnika elmləri üzrə fəlsəfə doktoru, dosent |
| 3. | Əliyeva Elmira Hacı Muradovna | AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru |
| 4. | Hüseynov Dadaş Ağa Cavad oğlu | AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru |
| 5. | Kəngərli Tələt Nəsrulla oğlu | AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru |
| 6. | Quliyev İbrahim Said oğlu | AMEA-nın həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor |